# İZAHAT VƏRƏQİ

«Ateşgah Həyat» Sığorta Şirkəti ASC 2021-ci il maliyyə ili üçün tərtib edilən hesabatlarla əlaqədar aşağıdakı zəruri izahatları təqdim edir.

Hesabat dövründə nizamnamə fondu 6.500.000,00 (altı milyon beş yüz min) manat təşkil edir və nizamnamə fondunun formalaşması aşağıdakı kimidir:

(manat)

| Sıra sayı | Təsisçilər | Elan olunmuş nizamnamə kapitalının faizi | Elan olunmuş nizamnamə kapitalının məbələği | Ödənilmiş nizamnamə kapitalının məbləği |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | ISR Finance MMC | 100% | 6.500.000,00 | 6.500.000,00 |
| | Cəmi | **100%** | **6.500.000,00** | **6 500 000,00** |

31.12.2021-ci il tarixinə şirkətdə 90 nəfət əməkdaş çalışır.

Sığorta şirkətinin balansı Forma №1 üzrə:

**Balansın aktiv hissəsi:**

I.«Uzunmüddətli aktivlər» bölməsi:

1. **kodA1** «Torpaq, tikili və avadanlıqlarlar» üzrə əks olunmuş **4.704.998,35** manat vəsait Bina və tikililər kateqoriyası üzrə **4.489.295,80** manat , yüksək texnologiyalar məhsulu olan hesablama texnikası kateqoriyası üzrə **83.875,74** manat , Nəqliyyat vasitələri kateqotiyası üzrə **114.370,2** manat və sair Əsas vəsaitlər kateqoriyası üzrə **17.456,61** AZN olmaqla 4 kateqoriyanın cəmindən ibarətdir;
2. **kodA2** «Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması» üzrə əks olunmuş **0** manat vəsait yüksək texnologiyalar məhsulu olan hesablama texnikasından ibarətdir.
3. **kodA4** «Qeyri-maddi aktivlərin siyahısı» üzrə əks olunmuş **322.008,33** manat Lisenziya, Proqram təminatı və Sair QMA olmaqla 3 kateqoriyanın cəmindən ibarətdir;
4. **kodA5** «Təxirə salınmış vergi aktivləri» üzrə **55.725,14** manat maliyyə uçotu ilə vergi uçotu arasında yaranmış mənfəət vergisi üzrə fərq məbləğindən ibarətdir.
5. **kodA10** «sair maliyyə aktivləri» üzrə **100.000,00** manat 17.04.2014 tarixli 19 saylı çıxarışa əsasən İSB-də olan təminat depozitidir.

II.«Qısamüddətli aktivlər» bölməsi:

1. **kodC3, kodC6** Debitor borclarında «Birbaşa sığorta üzrə» və "Təkrarsığorta üzrə" təsnifat Forma 14 verilib.
2. **kodC9** «iddia tələbləri üzrə» əks olunmuş **1.274.639,89** manat fəaliyyəti dayandırılmış banklarda olan pul vəsaitlərindən ibarətdir;
3. **kodC12** «Sair debitorlarla hesablaşmalar» üzrə əks olunmuş **755,77** manat vəsait broker haqqı, agent komissiyası və qaytarılan sığorta haqqlarından ibarətdir;
4. **kodC13** «Pul vəsaitləri və onların ekvivalentləri» üzrə əks olunmuş **45.811.167,62** manat vəsait kassa, bank, depozit hesabları və yolda olan pullardan ibarətdir;

5. ***kodC19*** *«Qısamüddətli maliyyə aktivləri» özrə əks olunmuş* ***11.622.431,86*** *manat Dövlət qiymətli kağızlarından ibarətdir;*
6. ***kodC23*** *«Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı» üzrə əks olunmuş* ***645.820,00*** *manat məbləğində vəsait sığorta üzrə qüvvədə olan normativ aktların tələblərinə uyğun olaraq yaradılmış ehtiyyatlarda təkrarsığortaçıların payı məbləğlərindən ibarətdir;*
7. ***kodA13, kodC30*** *«Sair aktivlər» üzrə əks olunmuş* ***24.503,17*** *manat və* ***133.965,41*** *manat məbləğ yanacaq materiallarından, şirkət üçün sifariş edilmiş reklam məhsullarından, dəftərxana ləvazimatlarından, şirkət üçün lazım olan blanklardan və sair təsərrüfat vəsaitlərindən ,* ***kod C29 85,03*** *manat təhtəl hesab və* ***134.876,18*** *manat* ***kod C28-də*** *verilmiş avanslardan ibarətdir.*

***Balansın passiv hissəsi:***

***II «Sığorta ehtiyyatları»*** *bölməsi:*
1. ***kodH2*** *Sığorta ehtiyyatları bölməsi üzrə əks olunmuş* ***44.928.108,88*** *manat məbləğində vəsait sığorta üzrə qüvvədə olan normativ aktların tələblərinə uyğun olaraq yaradılmış ehtiyyat məbləğlərindən ibarətdir;*
2. ***kodH19*** *«Təkrarsığorta əməliyyatları üzrə öhdəlikləri» bölməsində əks etdirilmiş* ***474.870,38*** *manat məbləğində vəsait Təkrarsığortaçılara hesablanmış təkrarsığorta mükafatlarından ibarətdir;*
3. ***kodJ6, kodJ7, kodJ8, kodJ10*** *«Kreditor borcları» üzrə əks olunmuş* ***2.937.397,75*** *manat məbləğin* ***11.944,42*** *manatı sosial sığorta və təminat üzrə,* ***435.973,10*** *manatı İcbari sığorta Bürosuna ödənilməli 5% təqvim haqqlarından və digər ödəmələrdən,* ***1.641.700,72*** *manatı sığorta məhsulları üzrə kreditor borclardan və* ***847.779,51*** *manat büdcəyə ödənişdən ibarətdir;*
4. ***KodJ12*** *« Gələcək hesabat dövrünün gəlirləri» üzrə əks etdirilmiş* ***550.912,25*** *manat məbləğ İpoteka kreditləri üzrə borcalanların həyat sığortası növü üzrə sonuncu ilin ödənilmiş sığorta haqqıdır;*
5. ***KodJ15*** *«Sair öhdəliklər» üzrə əks etdirilmiş* ***269.170,01*** *manat məbləğ cari ildə hesablamaya verilmiş sığorta ödənişlərindən ibarətdir.*

***Rəhbər***

***Baş mühasib***

HƏYAT SIĞORTA ŞİRKƏTİ * Atəşgah * AÇIQ SƏHMDAR CƏMİYYƏTİ